Saqib Yaşar oğlu MƏMMƏDOV
Mingəçevir Dövlət Universiteti, müəllim
Gəncə Dövlət Universitetinin dissertantı
Saqib_92@mail.ru
https://doi.org/10.30546/4.71.73001.2024.02.037

MİLLİ İQTİSADİYYATIN STRUKTURUNDA HƏYATA KEÇİRİLƏN ŞAXƏLƏNDİRMƏNİN DAYANIQLI İNKİŞAFIN TƏMİN EDİLMƏSİNDƏ ROLU

Xülasə

Məqalədə Azərbaycan Respublikasının sosial-iqtisadi, enerji, intellektual, investisiya imkanları qiymətləndirilmişdir. Zəngin təbii resurs potensialına, qiymətli xammal mənbələrinə malik ölkəmizin həmçinin digər sənaye sahələrinin inkişafı yönündə addımları nəzərdən keçirilmişdir. Milli iqtisadiyyatın həm regional, həm də beynəlxalq miqyasda iqtisadi təhlükəsizliyinin təmin edilməsində sağlam iqtisadi strukturun formalaşmasına yönələn şaxələndirmə siyasətinin əhəmiyyəti qeyd edilmişdir. Bunun üçün qeyri-neft sektorunun üstünlük təşkil etdiyi sənaye sahələrinin çeşidliliyinin artırılması əsasında dayanıqlı iqtisadi inkişafın motivləri araşdırılmışdır. Məqələdə həmçinin, ölkə regionlarının milli iqtisadiyyata geniş şəkildə transformasiyası üçün iqtisadiyyatın strukturunda edilən dəyişikliklərin obyektiv reallığı təhlil edilmişdir. İnkişaf edən və dəyişən bazar münasibətləri mühitində iqtisadiyyatın şaxələndirilməsinin hüquqi bazasının yaradılması, struktur nizamlanmasının yeni forma və metodlarının hazırlanması texnikasına diqqət yetirilmişdir.

Tədqiqatın məqsədi – Bazar münasibətlərinin müasir inkişafı şəraitində Azərbaycanda iqtisadi münasibətlər sistemində hüquqi tənzimlənmə prosesinin təkmilləşdirilməsi ilə yanaşı, iqtisadiyyatın strukturunda həyata keçirilən reformlar üçün xüsusi forma və metodların elmi və nəzəri əsaslandırılmasını inkişaf etdirməkdir.

Tədqiqatın metodologiyası – Tədqiqat yerinə yetirilən zamanı xüsusi metodlardan - sistem, struktur və funksional, modelləşdirmə, müqayisə və digər metodlardan, ümumi, həmçinin xüsusi təhlil üsullarından geniş istifadə edilmişdir.

Tədqiqatın tətbiqi əhəmiyyəti – Məqalədə təklif edilən yeni yanaşmalar və həmçinin tövsiyələr ölkə iqtisadiyyatında struktur siyasətinin həyata keçirilməsində əhəmiyyətli rol oynaya bilər. Təklif edilən tövsiyələr Azərbaycan iqtisadiyyatının struktur mexanizminin təkmilləşdirilməsinin iqtisadi, hüquqi və infrastruktur təminatı məsələlərinə istiqamətlənmişdir.

Tədqiqatın nəticələri – tədqiqat aparılması nəticəsində müasirləşən dövlət idarəçiliyinin iqtisadi funksiyasının əsas tərəflərini aşkara çıxarmaq və iqtisadi funksiyasını həyata keçirmə formalarını və metodlarını müəyyən etmək, iqtisadi inkişafı nizamlayan hüquqi mexanizmin əsas detallarını xarakterizə etmək mümkündür.

Tədqiqatın elmi yeniliyi – iqtisadi sistemin sektorlararası struktur təkmilləşdirilməsi üçün beynəlxalq təcrübəyə nəzər salmaqla dövlətin struktur siyasətinin əsas tərəflərini səciyyələndirməkdir.

Açar sözlər: iqtisadiyyatın şaxələndirilməsi, qeyri neft-qaz sektoru, dayanıqlı iqtisadi inkişaf, sənayenin strukturu, aqrar sahə.

Giriş

Milli iqtisadiyyat dedikdə möhkəm əlaqələrə, geniş tərkibə malik makroiqtisadi elementlərdən təşkil olunan kompleks bir sistem başa düşülür. İqtisadi quruluş isə məcmunu yaradan elementlərin qarşılıqlı əlaqəsinə əsaslanan münasibətlər sistemidir. Milli iqtisadiyyatın tarazlı, dayanıqlı, səmərəli inkişafı naminə iqtisadi quruluşun “sağlam” əsaslara malik olması mühüm əhəmiyyət kəsb edir. Təsadüfi deyildir ki, milli iqtisadiyyatların sektoral quruluşu təkcə həmin ölkələrdə müşahidə edilən həyat səviyyəsi və inkişaf templərindən asılı deyildir. Belə ki, tarixi, iqtisadi, coğrafi, mental, təbii və s. şərtlərdən asılı olaraq ayrı-ayrı ölkələr bir-birindən fərqlənən müxtəlif məhsul qrupları üzrə ixtisaslaşırlar. Çoxşaxəli anlayış kimi iqtisadiyyatın strukturuna iqtisadi

sistemin əsas və həlledici elementləri arasındakı rabitəni göstərən həll yolu kimi baxıla bilər. [2, s.37].

Tarixə nəzər salsaq, dünya tarixində ilk dəfə olaraq Bakı şəhərində neftin sənaye üsulu ilə hasilatı işlərinə başlanılması Azərbaycanda sənayeləşmə prosesinin başlanğıcı kimi qəbul olunur. XIX əsrin ikinci yarısından başlayaraq neft yataqlarının kütləvi axtarışı və qazılması hesabına hasılatın xeyli dərəcədə artması tendensiyanın inkişafına təkan vermiş, bu da öz təsirini ölkədə neftlə bağlı sənaye sahələrinin təşəkkül tapmasında göstərmişdir. Ötən əsrin yarısından etibarən sənayeləşmə dalğaları regionlara sirayət etmiş, yeni sənaye rayonları və şəhərləri salınmışdır. [5, s.224].

Əlbəttə, qısa səyahət etdiyimiz şanlı tariximiz bizim üçün müstəsna dərəcədə dəyərlidir. Fəxrlə deyə bilərik ki, dünya tarixində neft sənayesinin təşəkkül tapmasında Azərbaycan zəhmətkeşlərinin böyük əməyi vardır. Neftimiz ölkəmizin inkişafında həlledici rol oynamış, xalqımızın rifahının artmasında əsas amillərdən biri olmuşdur.

Lakin, yaşadığımız dövrdə yeni çağırışlar tamamilə fərqli yönə istiqamətlənən inkişaf meyillərini nəzərə almağı və uyğunlaşmağı tələb edir. İqtisadi həyatın müasir qloballaşması və çoxistiqamətli transformasiyası şəraitində ölkə iqtisadiyyatının dayanıqlılığının təmin edilməsinin mühüm şərtlərindən biri onu hərtərəfli təmin edə biləcək struktur siyasətinin formalaşdırılması və reallaşdırılmasıdır. Bu mənada əsas şərtlərdən biri ölkə iqtisadiyyatının struktur sisteminin vaxtında və düzgün qiymətləndirilməsidir. Çünki, nəzərə almaq lazımdır ki, iqtisadiyyat müqayisəyəgəlməz dərəcədə geniş struktura malik bir sistem kimi özünü göstərir.

Ötən əsrin əvvəllərindən etibarən iqtisadiyyatın sektoral quruluşunda bəzi dəyişikliklər baş vermişdir. İnkişaf etmiş Qərb ölkələrində məhsul və xidmətlərin yaradılmasında təbiətə zərər vuran, ona mənfi təsir edən sənaye sahələri (təbii xammalın ilkin email da daxil olmaqla), kənd təsərrüfatı sahələri üstünlüyə malik olmaqla maşınqayırma sənayesi də sürətli inkişafa töhfə verməyə başlamışdır. Əsrin ortalarından etibarən ÜDM istehsalında ilkin sənaye və kənd təsərrüfatının payı sürətlə aşağı düşməyə başladı və xidmət sektorunun payında ciddi formada artım görünməyə başladı. Postsənaye cəmiyyətinə keçidlə bağlı inkişaf etmiş ölkələrin iqtisadiyyatlarının sektor quruluşunda köklü dəyişikliklərlə müşayiət olunur.

İqtisadiyyatın quruluşu dedikdə mövcud texniki imkanlara, sosial-iqtisadi ehtiyaclara və əldə olunan əmək məhsuldarlığına uyğun olaraq bölgü və mübadilə mexanizmlərinin təsiri ilə meydana gələn, bir-birilə əlaqəli nisbətlərin kompleks sistemi başa düşülür. İqtisadiyyatın quruluşu “çox vaxt texnoloji əsasa malik olan, prinsip etibarilə iqtisadi və mülkiyyət münasibətləri, institusional vasitəsilə yerinə yetirilən və mübadilə münasibətləri yoluyla reallığa çevrilən” əmək bölgüsü sisteminin mahiyyətini əks etdiririr [4, s.121].

Materiallar və metodlar

Tədqiqat işinin yerinə yetirilməsi, o cümlədən nəticənin əldə edilməsi yolundakı vəzifələrin reallaşdırılması prosesində müxtəlif tədqiqat metodlarından istifadə edilmişdir. İdrak mərhələsində iqtisadi təhlilin malik olduğu üsul və vasitələrə müraciət edilmişdir. Elmi tədqiqat aparılarkən həmçinin, xüsusi metodlardan da geniş şəkildə yararlanılmışdır. Elmi abstraksiya metodu, induksiya və deduksiya, sistem, təhlil və sintez, struktur və funksional, tarixi və məntiqi, riyazi-statistik modelləşdirmə və digər metodlardan, habelə konkret və mücərrəd təhlil üsullarından istifadə edilmişdir. Tədqiqat işinin məlumat bazası rolunda bir çox dövlət orqanlarının rəsmi saytları çıxış edir. Buraya Dövlət Statistika Komitəsinin, İqitisadiyyat Nazirliyinin, Mərkəzi Bankın eletron bazasında nümayiş etdirilən statistik məlumatlar aiddir. Həmçinin mövzuya uğyun olan həm yerli, həm də xarici tədqiqatçıların araşdırmalarına müraciət edilmişdir.

Müzakirə

Milli iqtisadi sistemin elmi əsaslara söykənən dövlət tənzimlənməsində və müxtəlif xarakterlərə malik çoxsaylı təssərrüfat sistemlərinin dayanıqlı inkişafında iqtisadiyyatın səmərəli strukturlaşdırlması və şaxələndirilməsi mühüm əhəmiyyət kəsb edir. Burada nəzərə alınmalı bir neçə başlıca cəhətlər vardır ki, onlar perspektiv inkişafda əvəzedilməz rola malikdir. Elmi-texniki tərəqqinin

tətbiqinin vacibliyi, innovasiyaya əsaslanan investisiya siyasətinin yürüdülməsi, iqtisadi mexanizmin real prinsiplərinin nəzərə alınaraq modernləşdirilməsi, inkişafda səmərəlilik amilinin gündəmdə saxlanılması kimi tədbirlər mütləq şəkildə tədqiq edilməlidir.

Sosial-iqtisadi xarakterə malik iqitisadi strukturun daxili dinamik inkişaf templərinin öyrənilməsində ziddiyyətlərin aşkar edilərək ortaya çıxarılması labüddür. Bu labüdlük iqtisadi sistemlərə xas olan sabitlik və dəyişkənlik xüsusiyyətlərinin eyni anda mövcud olması ilə bağlıdır. “Quruluş” anlayışının mənasını öyrənərkən biz zamanın müəyyən anında sistemdə sabitliyin bərqərar olması faktı ilə qarşılaşırıq. Sistemə aid olan ziddiyyətlər isə daha çox orta və uzunmüddətli dövrdə meydana çıxır. Bu halda nisbi tarazlıq və sabitlik vəziyyətində olan struktur kənar təsirlərin artması fonunda dəyişikliklərə məruz qalmaq təhlükəsi ilə üz-üzə qalır. [3, s.122].

Bir çox situasiyalarda strukturda baş verən dəyişikliklər tarazlıq halı üçün şərait yaradır. Bu, strukturda özünü büruzə verən kiçik dəyişikliklər nəticəsində yaranır. Nəticədə, inkişafın özündə təkamül əlamətləri peyda olur. İnkişafın bu mərhələsinin xüsusi pilləsində cərəyan edən proseslər qarşılıqlı güzəşt transformasiyası halı ilə üzləşir. Aşağıdakı cədvələ diqqət yetirsək bunu görə bilərik.

Cədvəl 1.

2023-cü ildə iqtisadiyyatın dövlət və qeyri-dövlət bölmələrində yaradılmış əlavə dəyər, əsas qiymətlərlə, milyon manat

	Cəmi	O cümlədən	
		Dövlət	Qeyri-dövlət
Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq	6815,6	6,8	6808,8
Mədənçıxarma sənayesi	41082,2	624,1	40458,1
Emal sənayesi	7107,8	3155,5	3952,3
Elektrik enerjisi, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı	1291,3	1215,7	75,6
Su təchizatı, tullantıların təmizlənməsi və emalı	277,9	178,6	99,3
Tikinti	7600,4	858,8	6741,6
Ticarət və xidmətlər	15017,3	194,9	14822,4
Nəqliyyat və anbar təsərrüfatı	7637,0	1314,5	6322,5
İnformasiya və rabitə	2151,4	208,1	1943,3
Digər xidmətlər	22832,9	11256,6	11576,3
Cəmi:	111813,8	19013,6	92800,2


Mənbə: *Dövlət Statistika Komitəsi*

Bəzən iqtisadiyyatın strukturunda böhran halları qaçınılmaz olur. Böhran bir çox səbəblərdən qaynaqlana bilər. Əsas səbəb ənənəvi istehsal quruluşu və resursların qeyri-tarazlı bölgüsünün tələbatların mövcud səviyyəsinə uyğun gəlmədiyi vaxtlarda meydana çıxır. Bu halda iqtisadiyyatın yenidən təşkili üçün konkret məqsədlər və hədəflər müəyyənləşdirilir. Buna baxmayaraq əsaslı dəyişikliklərin olması üçün vaxta ehtiyac duyulur. Əgər bu hal gec baş verərsə iqtisadi sistemin dəyişən mühit amillərinə uyğunlaşması prosesi ləngiyir. Bunun nəticəsində iqtisadi böyümədə ciddi nöqsanlar yaranır, milli iqtisadiyyatın yeni struktura uyğunlaşması prosesi çətin və ağrılı hala çevrilir. İctimai istehsalın həcmində azalma və durğunluğun yaranması ilə makroiqtisadi səviyyədə ciddi itkilər müşahidə olunur. İqtisadi konyunkturanın pozulması səbəbindən maliyyə-bank və büdcə-vergi sferasında gerilik meydana gəlir.[3, s.122].

Azərbaycan ərazisində ən qədim tarixdən başlayaraq müxtəlif millətlərin, mədəniyyətlərin cəm halında yaşaması üçün əlverişli sosial-iqtisadi və ekoloji mühit mövcud olmuşdur. Ölkəmizin siyasi-inzibati ərazisində yaşayan insanlar milli dəyərlər, maraq və mənafelər baxımından uzlaşmış formada fəaliyyət göstərərək ölkə ərzasində təsərrüfat əlaqələrinə töhfələr vermişlər. Məhz bu səbəbdən milli iqtisadiyyatı ayrı-ayrı yöndən təhllil edərkən iqtisadi sistemin strukturunun müxtəlif

nisbətlərinin nəzərə alınması aktual məsələyə çevrilir. Ölkə iqtisadiyyatının strukturunda dövlət tənzimlənməsi mövcud nisbətlərə bu və ya başqa nöqteyi-nəzərdən təsir edərək yaranan makroiqtisadi və beynəlxalq şəraitə uyğunlaşmağa yönəlir. Sosial, iqtisadi, ekoloji, mədəni inkişaf səviyyəsindən və mövcud geosiyasi vəziyyətdən asılı olaraq fərdi nisbətlər seçilə və qeyri-tarazlı halı tənzimləmək üçün tədbirlər təşviq edilə bilər. Milli iqtisadiyyatın struktur tənzimlənməsi müxtəlif sektorlara uyğun nisbətlərin məqsəduyğun nizamlanmasına yönəldilmişdir. Struktur təhlil nisbətlərin və tarazlığın pozulmasının miqdarını təyin etməyə yönəlir. [4, s.254].


2023-cü ildə ölkəmizdə 123,0 milyard manatlıq və ya 2022-ci illə müqayisə edildikdə 1,1 faiz çox ümumi daxili məhsul yaradılmışdır. 2023-cü ildə qeyri-neft qaz sektorunda ÜDM-in həcmi 2022-ci illə müqayisədə 3,7% artaraq 77,7 milyard manat təşkil etmişdir. Qeyri-neft-qaz sektorunda ərsəyə gələn ÜDM-də kənd təsərrüfatının payı 8,8% olmuşdur. Meşə təsərrüfatı və balıqçılıqda bu göstərici 8,1%-ə bərabər olmuşdur. Tikintinin qeyri-qaz ÜDM-ində mövcudluğu 9,8% nisbətində olmuşdur. Ticarət və nəqliyyat vasitələrinin təmiri üzrə sahənin qeyri-neft ÜDM-ində hissəsi 15,9%, ticarət və nəqliyyat vasitələrinin təmiri, nəqliyyat və anbar təsərrüfatının və turistlərin yerləşdirilməsi və ictimai iaşə sektorlarının qeyri-neft qaz sektorunda yaradılan ÜDM-də payı müvafiq olaraq 9,8% və 3,5,% olmuşdur. İnformasiya və rabitə sahələrinin analoji göstəriciləri 2,8%, qeyri-neft ÜDM-inin 29,4%-i digər sahələr hesabına formalaşmış, məhsula və idxala xalis vergilərin həcmi 12,0% təşkil etmişdir.



Diaqram 1. 2023-cü ildə sənayenin struktur bölgüsü

Mənbə: Azərbaycan Dövlət Statistika Komitəsinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır

Diaqram 1-dən göründüyü kimi, sənayenin struktur bölgüsündə mədənçıxarma sənayesi hələ də üstünlük təşkil etməkdədir. Lakin 2022-ci illə müqayisədə sənayenin strukturunda mədənçıxarma sənayesinin payı 75,4 faizdən 67,4 faizə düşmüşdür. Əvəzində emal sənayesinin payı 20,6 faizdən 27,1 faizə, elektrik enerjisi istehsalının payı isə 3,4 fazidən 4,6 faizədək artmışdır.



Diaqram 2. 2022-ci ildə sənayenin struktur bölgüsü


Mənbə: İqtisadiyyat Nazirliyinin rəsmi internet saytı - www.economy.gov.az

Diaqramdan məlum olduğu kimi 2022-ci ildə sənayenin strukturunda mədənçıxarma sənayesi 75.4%-lə böyük paya sahibdir. Emal sənayesi 20,6%, elektrik enerjisinin istehsalı 3,4%, su təchizatı, tullantıların təmizlənməsi və emalı isə 0,6% paya malik olmuşdur.

Qeyri neft-qaz bölməsinin dayanıqlı inkişafı istiqamətində qeyri-neft sənayesinin şaxələndirilməsi və daha sürətlə inkişaf etdirilməsi, aqrar sahənin müasirləşdirilməsi və ərzaq təhlükəsizliyinin möhkəmləndirilməsi, rəqəmsal ticarətə diqqətin artırılması və xidmət sektorunda fəaliyyət növlərinin tərkibinin genişləndirilməsi, turizm sahəsinin bərpası fəaliyyəti prosesinin sürətləndirilməsi əsas hədəflər kimi müəyyən olunmuşdur. Burada vacib məsələ kapital qoyuluşlarının həcminin artırılması ilə yanaşı, müasir investisiya istiqamətlərinin tapılması və buna uyğun olaraq fəaliyyətin həyata keçirilməsidir. Kapital qoyuluşu cəmiyyət üçün vacib əhəmiyyət kəsb edən və iqtisadi strukturun əsasını təşkil edən sahələrə yönəldilməlidir. Dayanıqlı inkişaf üçün əsas vacib məsələ iqtisadiyyatın perspektiv inkişaf istiqamətləri üzrə hədəflərin düzgün seçilməsi və həmin hədəflərə uyğun strategiyanın formalaşması hesab olunur [1, s.10].

Milli iqtisadi sistemdə struktur dinamikasında əsas diqqət yetirilməli xüsusiyyət onun daxilində olan bölmələrdə qeyri-bərabər inkişafın və dəyişikliyin olmasıdır. Belə olan halda nataraz dinamik dəyişikliklər strukturu təşkil edən elementlərdə də fərqli proseslərin baş verməsinə səbəb ola bilir. Strukturun tərkib elementlərində cərəyan edən dinamik hallar onun sürətli, yavaş hərəkətinə gətirib çıxarır. İqtisadiyyatı obyektiv reallıq kimi əhatə edən struktur təkibindəki qeyri-bərabər inkişafı aradan qaldırmaq əslində ziddiyyətli halın yumşalması kimi xarakterizə edilə bilər. Sözü gedən proses dayanıqlı olaraq baş verir. İndiyə qədər görülməmiş bir struktur nisbətinin əldə edilməsi əslində ziddiyyətli halın yenidən gündəmə gətirilməsi və həll edilməsi ilə eynilik təşkil edir. [4, s.45].

Sənayedə əsas kapitala yönəldilmiş vəsaitlərin bölgüsünü isə üçüncü diaqramdan daha aydın görə bilərik.



Diaqram 3. Sənayedə əsas kapitala yönəldilmiş vəsaitlərin bölgüsü

Mənbə: Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyinin məlumatları əsasında müəllif tərəfindən hazırlanmışdır.

Diaqramdan göründüyü kimi sənayedə əsas kapitala yönəldilmiş vəsaitlərin bölgüsündə neft-qaz sektoru üstünlüyünü davam etdirmişdir. Qeyri neft-qaz sektorunda mövcud vəziyyətin aradan qaldırılması prioritet məsələlərdən biridir.

2023-cü ildə iqtisadiyyatın kənd təsərrüfatı sektorunda 6815,6 milyon manat miqdarında yeni dəyər yaradılmışdır. Sözü gedən il ərzində 2022-ci illə müqayisədə heyvandarlıq sahəsində 3,2%, bitkiçilik məhsullarının istehsalında isə 2,7% artım qeydə alınmışdır. Heyvandarlıq sektorunda əsas artım nümayiş etdirən yumurta (8,4%) və ət (3,1%) məhsulları olmuşdursa, bitkiçilik sahəsində artımda ən yüksək templər taxıl məhsulları (2,8%) istehsalında olmuşdur.

Qeyri neft-qaz sənayesində 2023-cü ildə artım 7,9 faizə bərabər olmuşdur. Artımın əsasını qeyri-neft emalı sənayesi, həmçinin elektrik enerjisi istehsalı, qaz və buxar istehsalı, bölüşdürülməsi və təchizatı sahələri təşkil etmişdir. 2023-cü il ərzində nəqliyyat və ticarət vasitələrinin təmiri sektorunda artıma nail olunmuşdur. Belə ki, yaradılan əlavə dəyər hesabına 3,5% artımın nəticəsi özünü 12332,8 milyon manatda göstərmişdir. Haqqında danışdığımız ildə yük daşımalarında da artım tendensiyası əldə olunmuşdur. Yükdaşımaların həcmi 2022-ci ilə nisbətən 5,3 faiz artaraq

230,2 milyon tona çatmışdır. Həmçinin sərnişin daşımaları da artan sahələr siyahısındadır. 18,7% artan bu sahədə sərnişin daşımaları 1923,6 milyon nəfərə çatmışdır. Müasir dövrümüzdə informasiya və rabitə texnologiyalarına olan tələbin günbəgün artması qeyd olunan sahədə də dayanıqlı artım üçün əsas olmuşdur. Sektorda təqdim edilən xidmətlərdə mobil telefon rabitəsi sahəsinin çəkisi 36,1 faizə bərabər olmuşdur.

2023-cü ildə turistlərin yerləşdirilməsi və ictimai iaşə sahəsində formalaşan yeni dəyər əvvəlki ilin göstəriciləri ilə müqayisədə 21,8 faizlik artımla 2684,5 milyon manat olmuşdur. Ölkəyə 2023-cü ildə dünyanın 187 ölkəsindən 2085,8 min əcnəbi və vətndaşlığı olmayan şəxs gəlmişdir. Müqayisə üçün qeyd edək ki, bu göstərici 2022-ci ilə nisbətən 30,2 faiz artımı xarakterizə edir.

Artıq ölkəmizdə dayanıqlı həllər istiqamətində iri layihələrin reallaşdırılması və icrasına yönələn tədbirlərin şahidi olmaqdayıq. Lakin, buna əlavə olaraq infrastrukturun yeni tələblərə uyğunlaşdırılması üçün yeni inteqrasiya edilmiş sistemlərin tətbiqi həyata keçirilməlidir. Elektrik avtomobilləri üçün enerjidoldurma məntəqələrinin yaradılması, elektrik avtomobillərinin təmiri xidmətlərinin yaradılması və təkmilləşdirilməsi, günəş və külək panellərinə xidmət sahələrinə kapital qoyuluşlarına ehtiyac vardır. Siyahını işğaldan azad olunmuş ərazilərdə mütərəqqi istehsal və xidmət sahələrinin yaradılması üçün layihələrə yatırımlarla, ağıllı şəhər və kənd sistemlərinə uyğunlaşan ictimai münasibətlərin qurulması üçün təlimlərin keçirilməsi kimi məsələlərlə genişləndirmək olar.

Tələbatların daha yeni bir quruluşu əslində tərkib elmentlərində fərqliliyi, kompleks xarakterli dəyişikliyi nəzərdə tutur. Digər tərəfdən, ölkə iqtisadiyyatının postpandemiya və postkonflikt dövründə elm və təhsil, müasir sivilizasiyanın tələb etdiyi mədəni inkişaf, qarşılıqlı maraqlara əsaslanan ünsiyyət, səmərəli asudə vaxt və istirahət ehtiyacı kimi qeyri-maddi əsaslara söykənən ehtiyaclar daha böyük əhəmiyyətə malik olur. Daha doğrusu, cəmiyyətin ehtiyaclar sferası iki hissəyə bölünür. Birincisi qidalanma, geyim və mənzil kimi zəruri maddi ehtiyaclardır. İkinci ehtiyaclar qrupuna isə sosial yönümlü ehtiyaclar aiddir. Cəmiyyətin sürətli tərəqqisi ilə iqtisadi maraqların mühüm bir hissəsi olan ehtiyaclar dəyişikliklərə məruz qalaraq yeni əhəmiyyət qazanmağa başlayır.

İqtisadiyyatın dayanıqlı inkişafını şərtləndirən struktur dəyişiklikləri sosiali-iqtisadi və ekoloji təməllərə əsaslanan sistemin inkişafını zəruri edir. Bazar iqtisadiyyatının inkişafı və müasirləşən dünya halında ehtiyaclarda müşahidə edilən dəyişikliklər, yəni müəyyən ehtiyacların peyda olması, bəzilərinin isə sıradan çıxması ilə müşayiət edilərək ölkə iqtisadiyyatının strukturunda da dəyişikliklərə maraq və tələb yaradır. [2, s.53].

Tədqiqatın nəticəsi

İqtisadiyyatın yeni hədəflər əsnasında formalaşdırılması və yenidən qurulması onun strukturu, mövcud vəziyyəti ilə sıx bağlıdır. Şaxələndirmə zərurəti dayanıqlı inkişaf və iqtisadi yenidənqurmada güclü amil qismində çıxış edir. İqtisadiyyatın mövcud və gələcək strukturu ən müasir və beynəlxalq tələblərə uyğun olaraq yenidən formalaşmalıdır. Daxili resurslar hesab edilən xammal və kadr ehtiyatlarından düşünülmüş şəkildə istifadə edərək, təbii resurslara daha yeni perspektivdən və planlaşdırılmış şəkildə yanaşaraq perspektiv inkişaf yolunda daha inamlı addımlamağa nail olmaq mümkündür. Kompleks sistemin hər bir elementi strukturun formalaşmasında özünəməxsus rol oynayır. Xüsusilə, zəngin neft və qaz resurslarının satışından əldə olunan valyuta ehtiyatlarını bərba olunan enerji sahələrinə xərcləməklə, iqtisadiyyatın bütün sektorlarının dayanıqlı inkişafı üçün münbit baza yaratmağa nail olunmaqla, qeyri-neft (turizm, müasur sənayeləşmə, İKT və s.) sektorunu uzunmüddətli və daimi valyuta gətirə biləcək bölməyə çevirmək vacib əhəmiyyət kəsb edir. Dəyişən və inkişaf edən dünyada dayanıqlı əsaslara söykənən bir strukturun yaradılması başlıca hədəf hesab olunur. Milli iqtisadiyyatın şaxələndirilmiş və rəqabətədavamlı olması, beynəlxalq imicin də yüksəlməsinə və dünya ölkələrinin, beynəlxalq təşkilatların marağının artması ilə nəticələnir. Məqaləyə əsasən belə nəticəyə gəlmək olar ki, hal-hazırda bazar iqtisadiyyatı münasibətlərinin inkişafı şəraitində dayanıqlı iqtisadiyyat yönündə struktur, innovasiya, investisiya, sənaye sahələrinin inkişafı üçün səylər daha da artırılmalıdır.

ƏDƏBİYYAT

1. Əhmədov, İ. (2017). Azərbaycan iqtisadiyyatının diversifikasiya problemləri: Maneələr və həlli yolları. Bakı, 41 s.
2. Bayramov, V.İ. (2019), Milli iqtisadiyyatın dayanıqlılığı. (Monoqrafiya). Bakı, 161 s.
3. Şahbazov, K., Həsənov, H., Məmmədov, H. (2011) Dövlət və bələdiyyə idarəçiliyi. Bakı, İqtisad Universiteti nəşriyyatı, 440 s.
4. Şəkərəliyev A.Ş., Şəkərəliyev Q.A. (2016), Azərbaycan iqtisadiyyatı: reallıqlar və perspektivlər. Bakı, «Turxan» NPB, 538 s.
5. Vəliyev, T., Babayev Ə., Meybullayev, M. (2001), İqtisadi Nəzəriyyə. Bakı, Gənclik nəşriyyatı, 691 s.
6. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəsmi internet saytı – www.stat.gov.az
7. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinin rəsmi internet saytı - www.economy.gov.az

Сагиб Яшар оглы Мамедов
Мингечаурский Государственный Университет, преподаватель
Диссертант Гянджинского Государственного Университета

Роль диверсификации в структуре национальной экономики в обеспечении устойчивого развития

Резюме

В статье рассмотрены факторы, которые не только позволяют экономическому, демографическому, интеллектуальному потенциалу Азербайджана, наличию практически всех видов сырья и ресурсов занять особое место в регионе нахождения страны, но и делают его важнейшим мировым центром. Обеспечение экономической безопасности в этом направлении, структурная политика как важнейшее направление политики продолжения устойчивого экономического развития Азербайджана является объективным подходом к балансу в развитии регионов, территорий и регионов, расположенных в различных климатических, социально-экономических условиях. В статье уделено внимание совершенствованию правового регулирования экономических отношений в Азербайджане как государстве в условиях рыночных отношений, а также научному обоснованию форм и методов структурного совершенствования экономики.

Цель исследования - Совершенствование процесса правового регулирования в системе экономических отношений в Азербайджане в современных условиях развития рыночных отношений, а также разработка научно-теоретического обоснования конкретных форм и методов реформ, осуществляемых в структуре экономики.

Методология исследования - В ходе исследований широко использовались специальные методы - системные, структурно-функциональные, методы моделирования, сравнения и другие, общие и специальные методы анализа.

Прикладное значение исследования - Предложенные в статье новые подходы и рекомендации могут сыграть важную роль в реализации структурной политики в экономике страны. Предложенные рекомендации направлены на вопросы экономического, правового и инфраструктурного обеспечения совершенствования структурного механизма экономики Азербайджанской Республики.

Результаты исследования - в результате проведения исследования можно раскрыть основные аспекты экономической функции модернизированного государственного управ-

ления и определить формы и методы реализации его экономической функции, охарактеризовать основные детали правового механизма, регулирующего экономическое развитие.

Оригинальность и научная новизна исследования - новизна исследования заключается в том, чтобы охарактеризовать основные аспекты структурной политики государства на основе международного опыта межотраслевого структурного совершенствования экономической системы.

Ключевые слова: диверсификация экономики, ненефтегазовый сектор, устойчивое экономическое развитие, структура промышленности, аграрный сектор.

Sagib Yashar Mammadov
Mingechaur State University, lecturer
Dissertation of the Ganja State University

The role of diversification in the structure of the national economy in ensuring sustainable development

Summary

In the article, the economic, demographic, intellectual potential of Azerbaijan, the presence of almost all types of raw materials and sources, which allow the country to occupy a special place in the region, and the factors that make it the most important world center, were considered. In this direction, ensuring economic security, structural policy is an objective approach to the balance in the development of regions, territories and regions located in different climatic, socio-economic conditions, as the most important direction of the policy of continuing sustainable economic development of Azerbaijan. The article focuses on the scientific justification of forms and methods for the structural improvement of the economy along with the improvement of the legal regulation of economic relations in Azerbaijan as a state in the conditions of market relations.

The purpose of the study - is to improve the process of legal regulation in the system of economic relations in Azerbaijan in modern conditions of development of market relations, as well as to develop a scientific and theoretical justification of specific forms and methods of reforms carried out in the structure of the economy.

Research methodology - In the course of research, special methods were widely used - systemic, structural and functional, modeling, comparison and other general and special methods of analysis.

The applied significance of the research - is that the new approaches and recommendations proposed in the article can play an important role in the implementation of structural policy in the country's economy. The proposed recommendations are aimed at issues of economic, legal and infrastructural support for improving the structural mechanism of the economy of the Republic of Azerbaijan.

Research results - as a result of the research, it is possible to reveal the main aspects of the economic function of modernized public administration and determine the forms and methods of implementing its economic function, characterize the main details of the legal mechanism governing economic development.

The originality and scientific novelty of the research - the novelty of the research is to characterize the main aspects of the structural policy of the state based on international experience of intersectoral structural improvement of the economic system

Key words - economic diversification, non-oil and gas sector, sustainable economic development, structure of industry, agricultural sector.